# AZƏRBAYCAN MƏDƏNİYYƏTİ 1920-1991-Cİ İLLƏRDƏ

X.M.ABASOVA

Azərbaycan mədəniyyəti ümumbəşər mədəni sistemin tərкib hissəsidir və bütün xüsusiyyətləri, bənzərsiz inкişaf tarixi, rəngarəngliyi ilə bu sistemdəкi qarşılıqlı təsir prosesindən кənarda deyildir. Bu mədəniyyət çoxəsrliк, ziddiyyətli inкişaf prosesinin məhsuludur. Milli mədəniyyəti qapalı sistem кimi öyrənməк meyli düzgün elmi nəticələr çıxarmağa imкan vermir. Azərbaycan mədəniyyəti monolit, daxilən vahid prosesdir və millətin (xalqın) конкret tarixi ilə bağlıdır. Azərbaycan xalqının yaşarlığının, digər xalqlara güclü mədəni-tarixi təsirinin başlıca mənbəyi onun çoxəsrliк təкamül prosesi ərzində yaratdığı, daim zənginləşən mədəniyyət potensialındadır. Bu mədəni potensialın müəyyən qismi Azərbaycanın sovet ictimai-iqtisadi, siyasi sistemi tərкibində olduğu zaman ərzində (1920-1991-ci illərdə) yaradılmışdır. 1991-ci ildə yenidən siyasi müstəqilliк yoluna çıxmış Azərbaycan xalqı mədəni yaradıcılıq potensialını daha yüкsəк səviyyədə gerçəкləşdirməк imкanları qazandı. Təqribən son 15 il ərzində qapalı sovet sistemindən qurtularaq qlobal proseslərə inteqrasiya olunan Azərbaycan xalqı dövlət müstəqilliyinin müsbət nəticələrini görməкdədir. «Xalqın düşüncəsində Azərbaycan məfhumu coğrafi bir mənadan ziyadə fiкir və əməl şəкlində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir Azərbaycan yoxdur».(1) Rusiya, sovet əsarəti sistemindən qurtulmuş Azərbaycan xalqının yaxın və uzaq tarixi кeçmişinə tənqidi yanaşması təbii haldır. Laкin xalqımızın sovet dövründə əldə etdiyi mədəni-tarixi uğurların qeyri-obyeкtiv şəкildə tənqid olunması, tarix elmindən uzaq, tarixi düşüncədən məhrum olan şəxslərin həmin uğurlardan imtina etməк təкlifləri qəbulolunmazdır. «Hər bir xülya кimi öz кeçmişindən imtina etməк və xarici meyarlar əsasında yenidən qurulmaq cəhdləri özünü doğrultmur. Öz кeçmişindən imtina etməк mütləq mənada qeyri-mümкündür».(2) 1920-1991-ci illər Azərbaycan xalqının mədəni-tarixi təкamülünün böyüк mərhələlərindən biridir və bu irsdən qeyd-şərtsiz imtina etməк qeyri-mümкündür.

**Azərbaycanda maarifin inкişafı.**

1920-ci ilin 28 aprel çevrilişindən sonra Sovet haкimiyyəti Azərbaycanda mədəni dəyişiкliкlərə «коmmunist ideologiyasını», «xalqlar dostluğu» ideyasını rəhbər tutaraq, Rusiyanın üstünlüyü şərti ilə «inqilabi» üsullarla başladı. Böyüк bir dövlətin ərazisində

heç bir mühüm mədəni məsələ «partiyanın rəhbərliyi» olmadan həll edilmirdi. Kommunist partiyası və sovet hakimiyyəti orqanları dövlət ərazisində mədəni həyata da mərkəzləşdirilmiş qaydada nəzarət etməyə çalışırdılar. Bu isə tədricən əhali kütlələri arasında avtoritar şüurun bərqərar olunması ilə nəticələndi. Mərkəzi hakimiyyətin sərt nəzarəti altında fəaliyyət göstərən Azərbaycan hökuməti və partiya təşkilatı ölkədə «yeni, sosialist mədəniyyətinin» təməllərini qurarkən kommunist ideologiyasının tələb etdiyi «prinsipləri» rəhbər tuturdular. Azərbaycanda sovet hakimiyyətinin ilk illərində bütün mədəni-maarif işlərinə rəhbərlik etmək səlahiyyəti respublika Xalq Maarif Komissarlığının əlində cəmləşdirilmişdi. Təqribən 100 il ərzində Rusiya imperiyasının milli ucqarlarından olmuş Azərbaycanın özünəməxsus şəraitində «yeni, sosialist mədəniyyəti»nin quruculuğu böyük çətinliklərlə üzləşirdi.

Ölkədə yeni təhsil sistemi yaratmaq, mədəni-maarif müəssisələrinin geniş şəbəkəsini inkişaf etdirmək, elmi biliklərin əsaslarını qoymaq, geniş kütlələri bədii dəyərlərə alışdırmaq, sosial həyatda qadınların fəallığını artırmaq, inkişafa əngəl olan adət və mərasimləri aradan qaldırmaq, şəxsiyyətin mədəni-mənəvi inkişafına əlverişli şərait yaratmaq lazım idi.

Xalq təhsilini köhnə, müstəmləkəçi idarə üsulundan azad etmək, imtiyazlı, dini məktəblərin dayaqlarının ləğvi əsasında yeni məktəb yaratmaq, təhsil sistemini müasir tələblər və prinsiplər zəminində əsaslı şəkildə dəyişmək qarşıda duran başlıca, təxirəsalınmaz vəzifələrdən olmuşdur. Həmin vəzifələrin yerinə yetirilməsi üçün Azərbaycan sovet hökuməti xalq təhsilinin yeni inkişaf istiqamətlərini müəyyənləşdirən bir sıra dekret və sərəncamlar verdı. Maarif nazirliyinin köhnə aparatı ləğv olundu, yeni tərkibdə Xalq Maarif Komissarlığı orqanları fəaliyyətə başladı. Azərbaycanın qəza inqilab komitələri nəzdində Maarif şöbələri təsis olundu.(3) 1920-ci ilin 10 mayında ilk maarif komissarı Dadaş Bünyadzadənin (1920-1930) imzası ilə dərslərin ana dilində keçirildiyi, pulsuz, icbari politexnik məktəblərin təşkili haqqında dekret nəşr olundu. (4) Həmin ilin avqustunda peşəkar işçi qüvvələrinin hazırlanması üçün N.Nərimanovun (1870-1925) imzası ilə Azərbaycan İnqilab Komitəsinin dekreti əsasında Texniki-Peşə Təhsili Komitəsi təsis edildi.(5) Azərbaycanda tədris müəssisələri növlərinin demokratikləşdirilməsi, ölkədə yaşayan bütün millət və xalqlara öz məktəblərini və mədəniyyət müəssisələrini yaratmaq hüququ elan olundu. 1920-ci ilin mayında Azərbaycan İnqilab Koimitəsinin vicdan azadlığı haqqındakı dekretinə əsasən Xalq Maarif Komissarlığının tabeliyində olan bütün dövlət məktəblərində dini təlimlərin tədrisi və hər hansı dini mərasim keçirilməsi qadağan olundu, din nazirliyi ləğv edildi. Xalq Maarif Komissarlığının xüsusi əmri ilə tədris müəssisələri və məktəb şuralarının sədri vəzifəsini tutan və ya icra edən dini dərəcəli şəxslər vəzifələrindən azad olundular. Dövlət və məktəb kilsə və məsciddən tamamilə ayrıldı.

1920-ci ilin 19 sentyabrından 1 oktyabrına qədər Bakıda

Azərbaycan mədəniyyət və maarif işçilərinin I qurultayı keçirildi.(6) N.Nərimanov bu qurultaydakı çıxışında elan etmişdi: «Köhnə quruluşun ləğvi ilə məktəb də yeniləşməlidir. Tədris və tərbiyə üsulları yeni olmalıdır».(7) 1920-ci ilin dekabrında Azərbaycan İnqilab Komitəsinin dekreti ilə şagirdlərin ana dilinin I və II pillə (beşillik və dördillik təhsil kursları) məktəblərdə tədris dili olduğu təsdiq edildi. Azərbaycanda ali təhsilli milli müəllim kadrlarının azlığı ciddi problem kimi qarşıya çıxmışdı. 1920-ci ildə tədris obyektlərində çalışan bütün müəllimlərin yalnız 3 faizi ali təhsilli mütəxəssis idi. Ölkədə sovet hakimiyyətinin bərqərar olması ərəfəsində cəmi 2000 müəllim vardı, lakin «mövcud məktəblərin normal fəaliyyət göstərməsi üçün 40 min nəfərədək müəllim tələb olunurdu».(8) Zamanın bu tələbinin ödənilməsi üçün 1920-ci ildən etibarən Azərbaycanın müxtəlif yaşayış məntəqələrində müəllimlər hazırlamaq məqsədilə 3 aylıq kursların təşkil olunmasına başlanıldı. 1920-1922-ci illər ərzində Bakı, Nuxa (Şəki), Şuşa, Gəncə, Qazax və Naxçıvan şəhərlərində müəllim seminariyaları açıldı. 1925-1926-cı illərdə Azərbaycanda 2 min nəfərədək şagirdin təhsil aldığı 16 pedaqoji texnikum fəaliyyət göstərirdi. 1924-1925-ci tədris ilində Azərbaycanda 34 yeni məktəb fəaliyyətə başlamışdı və 13 məktəb binasının tikintisi başa çatdırılmışdı.

Azərbaycanda maarifin yeni dövrün tələblərinə uyğun surətdə inkişafı üçün dərsliklərin tərtibi xüsusi əhəmiyyət kəsb edirdi. Yeni dərsliklərin tərtibi məqsədilə 1920-ci ildə Xalq Maarif Komissarlığında xüsusi komissiya yaradıldı. Bu komissiya sonralar dərsliklərin tərtibi və nəşri üzrə şöbəyə çevrildi. M.Mahmudbəyov, A.Şaiq, F.Ağayev kimi mahir pedaqoqlar ana dilində yeni dərsliklərin yaradılması işinə cəlb olunmuşdular. 1923-cü ilin dekabrından Xalq Maarif Komissarlığında bütün vahid əmək məktəblərinin metodik işinə ümumi rəhbərlik edən Elmi-Metodik Şura fəaliyyət göstərirdi. Əməli olaraq Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda dövlət və partiya nəzarəti altında vahid təhsil sistemi yaradılmışdı. Bu sistemdə tədris plan və proqramlarının əsasını əmək, cəmiyyət və təbiət mövzuları təşkil edirdi.

«Xalqlar dostluğu» ideyasını gerçəkləşdirməyə çalışan dövlət və partiya orqanları Azərbaycanda azlıqda olan xalqların mədəni-maarif cəhətdən inkişafına xüsusi qayğı göstərirdilər. 1925-1926-cı tədris ilində ölkədə 1057 birinci dərəcəli Azərbaycan, 190 erməni, 132 rus, 5 gürcü, 7 alman, 2 yəhudi, 2 yunan, 1 aysor, 4 tatar məktəbi və 40 qarışıq məktəb vardı. Onlar üçün ana dilində əlifba nəşrinə cəhdlər edilmiş, pedaqoji kurslar açılmışdı.

Azərbaycan məktəblərində təhsil alan şagirdlərin sayı getdikcə artırdı. 1926-1927-ci tədris ilində ölkədə 166.528 şagird təhsil alırdı.(9) Beləliklə, XX əsrin 20-ci illərində yeni Azərbaycan məktəblərinin təməli qoyuldu, əhalinin kütləvi şəkildə təhsilə cəlb olunması üçün əlverişli şərait yaradıldı. Azərbaycanda xalq maarifinin ümdə vəzifəsi əhalinin savadsızlığının ləğv edilməsi hesab olunurdu. Ölkədə əhalinin bütün təbəqələrini əhatə edən savadsız-

lığı ləğvetmə məktəblərinin və kurslarının açılmasına başlanıldı. 1922-1923-cü tədris ilində Bakı və onun ətraf mədən rayonlarında 7.517 nəfərin təhsil aldığı 257 savad məktəbi fəaliyyət göstərirdi. Azərbaycanın bütün qəzalarında isə yalnız 3852 nəfəri əhatə edən 189 məktəb təşkil etmək mümkün olmuşdu. Savadsızlığın ləğvi işini vahid orqanda mərkəzləşdirmək məqsədilə 1923-cü ilin dekabrında XKS-nin sədri Q.Musabəyovun başçılığı ilə «Savadsızlıqla mübarizə komitəsi» yaradıldı. Azərbaycan XKS-nin və MİK-nin 18 mart 1924-cü il tarixli «Azərbaycan SSR əhalisi arasında savadsızlığın ləğvi haqqında» qərarında oxumağı və yazmağı bacarmayan, 15-25 yaşda olan bütün əhaliyə savad öyrətmək bir vəzifə kimi tapşırıldı. Bu məqsəd üçün fabrik, zavod və idarələrdə boş otaqlardan, klub, xalq evi və məktəblərdən istifadə etmək hüququ verildi. Savad məktəblərində təhsil alan fəhlələrin 8 saatlıq iş günü əmək haqqı saxlanılmaqla bütün təhsil müddətində 2 saat ixtisar olundu. 1924-cü ilin 17 iyulunda Azərbaycanda «Rədd olsun savadsızlıq» cəmiyyəti yaradıldı və Xalq Daxili İşlər Komissarı H.Sultanov cəmiyyətin idarə heyətinin sədri seçildi. Bakıda və qəzalarda cəmiyyətin şöbələri açıldı. Savadsızlığı ləğvetmə məntəqələrinə cəlb olunanlar tədricən artırdı. 1924-1925-ci tədris ilində 1233 savadsızlığı ləğvetmə məntəqəsində 31.755 nəfər təhsil alırdı. Bir çox problemlərin mövcudluğuna baxmayaraq, ölkədə savadsızlığın ləğvi sahəsində ilk uğurlar qazanıldı: 1921-1927-ci illər ərzində 102.370 nəfər yalnız əlifba savadı qazanmışdı və həmin şəxslərdən 63.607 nəfəri azərbaycanlı idi.

Əlifba məsələsi XX əsrin 20-ci illərində Azərbaycan mədəni həyatının diqqəti cəlb edən gerçəkliklərindən olmuşdur. 1920-ci ilin noyabrında Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında əlifba islahatı üzrə komissiya yaradıldı.(10) 1922-ci ilin 6 martında AK(b)P-nin plenumu Azərbaycan əlifbasını ərəb qrafikasından latın yazısına keçirmək üçün S.Ağamalıoğlunun başçılığı ilə xüsusi komissiya yaratdı. Bu komissiyanın bazasında həmin ilin mayında əlifbanın latınlaşdırılması işini aparan Yeni Türk Əlifbası (YTƏ) Daimi Komitəsi yaradıldı. S.Ağamalıoğlu (sədr), X.Məlik-Aslanov, Əhməd Pepinov, Ə.Tağızadə, S.M.Əfəndiyev, F.Ağayev, V.Xuluflu, T.Hüseynov kimi görkəmli Azərbaycan ziyalıları bu komitənin tərkibinə daxil idilər. Azərbaycanın bütün qəzalarında bu komitənin şöbələri fəaliyyət göstərirdi. Yeni əlifba tədricən tətbiq edilirdi. 1926-cı ilin 26 fevralından 5 martınadək Bakıda türkdilli xalqların I Ümumittifaq türkoloji qurultayı keçirildi. Bu qurultayda 131 nümayəndə iştirak edirdi və başlıca müzakirə obyekti latın qrafikasına keçid məsələsi idi. 1927-ci ilin iyununda Bakıda Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin təsis Plenumu keçirildi. Plenumda SSRİ-nin əvvəllər yazısı olmayan və ya ərəb qrafikasından istifadə edən bütün xalqları üçün məcburi olan vahid, yeni, təkmilləşdirilmiş əlifba (latın qrafikası əsasında) qəbul edildi.

Mədəni-maarif müəssisələri şəbəkəsinin yaradılması, bu şəbəkənin fəaliyyətinin dövrün tələblərinə uyğun surətdə təşkil olun-

ması Azərbaycan hökumətinin başlıca qayğı obyektlərindən olmuşdur. Klub, kitabxana və qiraət komaları sovet hakimiyyətinin ilk illərində bu şəbəkənin əsas obyektləri idi. Artıq 1924-cü ilin ortalarında Azərbaycanda 54 fəhlə klubu fəaliyyət göstərirdi. 1927-ci ilin sonunda ölkədə fəaliyyət göstərən kənd klublarının sayı 171-ə çatmışdı. 1920-ci ilin əvvəlində Azərbaycanda cəmi beş kitabxana vardı. 1923-cü ildə Azərbaycan Dövlət Kitabxanasının, 1925-ci ildə isə Kitab Palatasının təşkili ölkənin mədəni həyatında mühüm hadisəyə çevrildi.

Müxtəlif məzmunlu ədəbiyyatın nəşri mədəni tərəqqiyə təkan verən amil idi və dövlət, partiya orqanları hər vasitə ilə Azərbaycanda nəşriyyat bazasının inkişaf etdirilməsinə çalışırdılar. 1921-ci ilin mayında bütün mətbəə müəssisələri milliləşdirildi. Azərbaycan hökuməti «Kommunist ideyalarının» təbliği işinə xüsusi diqqətlə yanaşırdı. Lakin Azərbaycan siyasi xadimləri milli irsdən tam uzaqlaşmamışdılar. Onlar bu irsi «kommunist ideologiyası»nın xidmətinə yönəltməyə can atırdılar. 1922-ci ildə əsası 1906-cı ildə qoyulmuş «Molla Nəsrəddin» jurnalının nəşri Bakıda bərpa olundu. İslam Şərqində ilk qadın jurnalı – «Şərq qadını» 1923-cü ildə nəşrə başladı. 1928-ci ilin oktyabrında hökumət «Əkinçi» qəzetinin (1875-1877) 50 illik yubileyini keçirmək haqqında qərur qəbul etdi. 1927-ci ilin sonunda Azərbaycanda 194 min nüsxə tirajla 35 jurnal və digər nəşrlər çıxırdı.(11) 1924-cü ildə Bakıda ilk radio qurğusu fəaliyyətə başladı. Tezliklə ölkənin başqa yaşayış məntəqələrində də radio qurğuları yaradıldı. 1926-cı ilin 6 noyabrında efirdə ilk dəfə «Danışır Bakı» sözləri səsləndi. Artıq 1927-ci ildə ölkənin qəzalarında 114 radio qurğusu və 36 səyyar radiostansiya fəaliyyət göstərirdi.

XX əsrin 20-ci illərindən Azərbaycanda islam dininə rəsmi dairələrin münasibəti ziddiyyətliliyi ilə diqqəti cəlb edirdi. Bu dövrdə Azərbaycanın dövlət xadimləri arasında dinə münasibət məsələsində obyektiv mövqeyi N.Nərimanov tutmuşdu. O, dindarların hüquqlarının pozulmasına qarşı çıxır və dinə loyal münasibət göstərməyə çağırırdı. Lakin N.Nərimanovun bilavasitə rəhbərliyi ilə qəbul olunmuş dövlət qərarları zaman keçdikcə «unuduldu» və əhali arasında ateist təbliğatın genişləndirilməsinə başlanıldı. 1924-cü ildə Bakıda yaradılmış «Allahsız» cəmiyyəti bu sahədə xüsusi canfəşanlıq nümayiş etdirirdi.

XX əsrin 30-cu illərində də savadsızlığın ləğvi problemi ölkə rəhbərliyinin başlıca qayğı obyektlərindən olmuşdur. 1936-cı ilin fevralında Azərbaycan partiya təşkilatı və XKS yaşı 50-dək olan əməkçilər arasında savadsızlığın 2 ildə tamamilə ləğv olunması haqqında xüsusi qərar qəbul etdi. 1938-ci ildən 1940-cı ilin iyununadək ölkədə 530 min nəfər savadsız və azsavadlı təhsil almışdı. Əgər 1926-cı ildə Azərbaycan əhalisinin 18,1 faizi savadlı idisə, 1939-cu ildə bu rəqəm 73,8 faizə çatmışdı.(12) Azərbaycan hökuməti 1942-ci ilədək ölkədə savadsızlığın tamamilə ləğv olunması haqqında qərar vermişdi, lakin II Dünya müharibəsinə SSRİ-nin də

cəlb olunması bu problemin vaxtında həll edilməsini qeyri-mümkün etdi. Müharibəyə qədərki illərdə savadsızlığın ləğvi sahəsində qazanılmış uğurlar maarifin, xalqın ümumi təhsil səviyyəsinin yüksəlişinə, onun mədəni yaradıcılıq fəaliyyətinin inkişafına əlverişli şərait yaratdı.

Avtoritar rejimin mövcudluğuna baxmayaraq, savadsızlığın ləğvi prosesində əhalinin geniş təbəqələrinin fəal iştirakı təmin olunmuşdu və xalqın savad səviyyəsinin əsaslı surətdə yüksəldilməsi Azərbaycanda mədəniyyət sahəsində qazanılmış, inkarolunmaz uğurlardan idi. Əsrin 30-cü illərinin II yarısında ölkədə məktəb binalarının tikintisi işi genişləndirildi: yalnız 1933-1937-ci illərdə Azərbaycanda 108.090 şagird üçün nəzərdə tutulmuş 336 yeni məktəb binası tikilmişdi. Həmin məktəblərdən 260-ı ölkənin kənd yaşayış məntəqələrində idi. İxtisaslı pedaqoji kadrların sayı da artmışdı. Artıq 1936-1937-ci tədris ilində Azərbaycanda 15.137 müəllim fəaliyyət göstərirdi.(13) Qeyd etmək lazımdır ki, ictimai elmlərin məktəblərdə tədrisi zamanı «kommunist ideologiyası»na, «xalqlar dostluğu»na xidmət edən «biliklərə» üstünlük verilirdi. Məsələn, Azərbaycan tarixi məsələləri tədris proqramlarından çıxarılır və yaxud qısaldılmış şəkildə təqdim olunur, «SSRİ tarixi» adlanan fənnə (əslində Rusiya tarixinə) «yamaq» edilirdi. Bu hal Azərbaycanda sovet hakimiyyətinin sonlarınadək qaldı. Kommunist partiyası, sovet hakimiyyəti orqanları Rusiyanın, rus xalqının «tarixi uğurları»nı ön plana çəkir, «Rusiyanın əsrlər boyu digər xalqlara mədəniləşdirici, mütərəqqi təsir göstərdiyini» sovet ictimai şüurunda qərarlaşdırmağa can atırdılar.

Sovet dövründə Azərbaycan mədəni həyatının başlıca hadisələrindən biri ərəb yazı sistemindən latın qrafikasına keçid idi. 1928-ci ilin 21 iyulunda Azərbaycan MİK və Azərbaycan SSR XKS «Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması» haqqında qərar qəbul etdi.(14) 1929-cu ilin 1 yanvarından Azərbaycan SSR-in yeni əlifbaya keçməsi rəsmən elan edildi. Sovet rəhbərliyi böyük dövlət daxilində Rusiyanın üstün, aparıcı mövqeyindən istifadə edərək fəal ruslaşdırma siyasəti yeridirdi. 1938-ci ilin martında ÜİK(b)P və SSRİ XKS qeyri-rus məktəblərində rus dilinin icbari qaydada öyrənilməsi haqqında qərar qəbul etmişdi. Şovinist əhvali-ruhiyyəli bu rəhbərlik Azərbaycanda latın qrafikasının mövcudluğu ilə barişa bilmədi. Azərbaycan SSR Ali Sovetinin növbəti sessiyası 1939-cu ilin iyulunda latın qrafikasından kiril (rus) əlifbasına keçilməsi haqqında qanun qəbul etdikdən sonra (bu qanun 1940-cı ilin 1 yanvarından qüvvəyə mindi) rus dilinin fəaliyyət və nüfuz dairəsi daha da genişləndi. Beləliklə, tarixən qısa bir zaman ərzində Azərbaycanda əlifba sistemi iki dəfə dəyişdirildi. Lakin Azərbaycanda rus əlifbasının tətbiqi xalqı doğma dilindən, tarixi köklərindən və mədəni-mənəvi dəyərlərindən ayıra bilmədi.

XX əsrin 30-cu illərində Azərbaycanda islam dininə, bu dinin başlıca təşkilatlarına və obyektlərinə qarşı hücum daha da geniş-

ləndi. Ölkədə mövcud olan məscidlərin əksəriyyəti müxtəlif təyinatlı obyektlərə (məktəb, seçki məntəqələri, klub, anbar və s.) çevrildi. 30-cu illərin sonlarında Azərbaycanda yalnız 20 məscid formal fəaliyyət göstərirdi. Sovet rejimi siyasi baxımdan özünə müxalif olan şəxsləri «dini təbliğatla məşğul olmaqda» da təqsirləndirərək repressiyaya məruz qoydu. Yalnız 1934-38-ci illərdə Azərbaycanda 27.258 nəfər repressiyaya məruz qalmışdı ki, onların arasında din xadimləri də az deyildi.(15) Lakin xalqı mənəvi köklərindən ayırmaq mümkün olmadı.

1941-1945-ci illərdə Azərbaycanda da başlıca diqqət Böyük Vətən müharibəsinin qələbə ilə başa çatdırılmasına yönəldiyi üçün maarifin inkişafında müəyyən durğunluq halı yaranmışdı. 1946-1970-ci illərdə ölkənin şəhər və kəndlərində «444 min yerlik 169 ümumtəhsil məktəbi binası, 74 min yerlik məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verildi».(16) Artıq 1970-1971-ci tədris ilində ölkədə mövcud olan 5115 ümumtəhsil məktəbində 1444 minə qədər şagird təhsil alırdı. 1970-ci ildə ümumtəhsil məktəblərində 73,4 min müəllim çalışırdı.(17) 1958-1959-cu tədris ilindən etibarən orta məktəblərdə «Azərbaycan tarixi» (40 saat) «SSRİ tarixi» kursu daxilində tədris olunmağa başlandı. 1960-cı ildən isə tədris proqramına «İctimaiyyət» fənni əlavə olundu. 1971-ci ildə xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 274 min nəfərə çatmışdı.(18)

Ölkədə mədəni-maarif obyektlərinin şəbəkəsi də xeyli genişləndi. 1970-ci ildə ölkədə 2922 kitabxana, 2146 klub fəaliyyət göstərirdi. Azərbaycanda 27 muzey vardı. Respublikada 118 qəzet nəşr olunurdu (bunlardan 93-ü Azərbaycan dilində idi).

XX əsrin 80-cı illərinin sonlarından etibarən Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin separatçılıq fəaliyyəti, Ermənistan rəhbərliyinin azğın hərbi-siyasi müdaxiləsi və SSRİ rəhbərliyinin onlara fəal dəstəyi sayəsində Azərbaycanın ictimai-iqtisadi, siyasi, mədəni həyatında bir sıra kəskin problemlər yarandı. Həmin problemlər ölkədə təhsilin səviyyəsinə də mənfi təsirini göstərdi. 855 məktəbəqədər uşaq müəssisəsi, 693 ümumtəhsil məktəbi, 85 musiqi məktəbi, 4 texnikum və 1 ali məktəb binası erməni işğalçılarının əlinə keçmiş, qarət olunmuş, dağıdılmışdı.(19) Maddi vəziyyət ağır olduğuna görə minlərlə müəllim təhsil sistemini tərk etmişdi. 2000-2001-ci tədris ilində müstəqil Azərbaycan Respublikasında 4548 ümumtəhsil məktəbi vardı və bu məktəblərdə 1654 min şagird təhsil alır, 165 min müəllim çalışırdı. Bu tədris ilində ölkədə 43 ali məktəb fəaliyyət göstərir, bu müəssissələrdə 119,7 mindən artıq tələbə təhsil alırdı. 2002-2003-cü tədris ilində dünyanın 10-dan artıq ölkəsinin ali məktəblərində 882 nəfər azərbaycanlı, respublikanın ali məktəblərində isə 2100 xarici ölkə vətəndaşı təhsil alırdı.(20) Beləliklə, yeni əsrdə Azərbaycan maarif sisteminin beynəlxalq maarif sisteminə inteqrasiyası prosesi dərinləşir, ölkənin gələcək tərəqqisi üçün əlverişli zəmin hazırlanır. Siyasi müstəqilliyin qazanılması məqamınadək Azər-

baycanda zəngin maarif potensialı yaradılmışdı və bu potensial ölkənin gələcək mədəni inkişafının möhkəm təməlini təşkil edir.

**Azərbaycanda Elmin Tərəqqisi**

Azərbaycanda sovet hakimiyyətinin qurulması ərəfəsində Bakıda yalnız 2 texniki-peşə və dənizçilik məktəbi, Gəncədə və Zaqatalada isə sənət məktəbləri vardı. Bu təhsil müəssisələrində dərslər yalnız rus dilində aparılırdı. Sovet hakimiyyətinin bir neçə ili ərzində ölkədə texnikumlar şəbəkəsi xeyli genişləndi, onlarda azərbaycanlıların sayı üstünlük təşkil etməyə başladı. 1926-1927-ci tədris ilində 39 texnikumda təhsil alan 7137 nəfərdən 67,7 faizi azərbaycanlı idi. Azərbaycandakı texnikumlar pedaqoji, sənaye-iqtisadi, nəqliyyat, sənaye-texniki, kustar sənətkarlıq, kənd təsərrüfatı, təbabət, vokal-musiqi və teatr ixtisasları üzrə qruplaşdırılmışdı. Bu zaman Azərbaycanda yeganə ali təhsil müəssisəsi və elm mərkəzi 1919-cu ildə açılmış Bakı Universiteti idi. Sovet hakimiyyətinin ilk illərində bu müəssisədə yeni fakültələr yaradıldı (əvvəllər yalnız 2 fakültə vardı), Rusiyadan görkəmli alimlər, pedaqoqlar dəvət olundu, ölkədə elmin, ali təhsilin inkişafı üçün əlverişli zəmin hazırlandı. N.Nərimanovun böyük səyi sayəsində 1921-ci ilin payızında Azərbaycanda daha bir ali təhsil müəssisəsi (Bakıda Azərbaycan Pedaqoji İnstitutu) fəaliyyətə başladı. 1921-ci ilin fevralında Xalq Maarif Komissarlığı nəzdində «elm və təhsil sahəsində bütün işə ümumi ideya rəhbərliyi üçün» akademik şöbə yaradıldı.(21) Bu məqamadək ölkədə formalaşmış təbii-texniki profilli elmi-tədqiqat müəssisəsi yox idi. Sovet rəhbərliyi Azərbaycanın təbii sərvətlərini (ilk növbədə neftini) tezliklə, yeni üsullarla mənimsəmək məqsədi ilə ölkədə bir sıra təbiət elmlərinin inkişaf etdirilməsində çox maraqlı idi. Bu məqsədlə Rusiyadan və SSRİnin digər bölgələrindən görkəmli alimlər Azərbaycana ezam olundular. L.S.Leybenzon, J.M.Qubkin, M.V.Abramoviç, D.V.Qolubyatnikov onların arasında xüsusilə fərqlənmişlər. Böyük elmi qüvvələrin cəmləşdiyi M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutu ölkədə texniki araşdırmaların əsas mərkəzinə çevrildi. İctimai elmlər sahəsində ilk addımlar Azərbaycan Dövlət Universitetində atıldı. Ölkədə ictimai elmlərin təşəkkülü və inkişafına A.O.Makovelski, Y.A.Bertels, N.K.Dmitriyev, A.O.Qubaydullin, Y.A.Baybakov, P.K.Juze, V.M.Sısoyev, B.Çobanzadə həlledici təsir göstərdilər. 1923-cü ilin iyununda Azərbaycan Arxeologiya Komitəsi, həmin ilin 2 noyabrında isə 40 nəfərədək görkəmli alim və mütəxəssisin iştirakı ilə ölkədə ilk elmi mərkəz olan «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti» yaradıldı. Azərbaycan Arxeologiya Komitəsi 1927-ci ildə tarix, incəsənət və mədəniyyət abidələrinin qorunması komitəsinə çevrildi. «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin» Azərbaycanda bir sıra yerlərdə şöbələri fəaliyyətə başlandı. 1925-ci ildə bu elmi mərkəzin Moskvada, sonra isə Leninqradda şöbələri açıldı. 1928-ci ildən isə Azərbaycan dilində bu cəmiyyətin «Xəbərlər»i nəşr olunmağa başlandı. Ölkənin elmi, mədəni həyatında həmin cəmiyyətin böyük rolu vardı. 1925-ci ildə cəmiyyətin

2 illiyinə həsr olunmuş təntənəli tədbirdə hökumət adından çıxış etmiş Xalq Maarif komissarı M.Quliyev qeyd etmişdi ki, o, bu cəmiyyətdə gələcək Azərbaycan Elmlər Akademiyasını görür.(22)

XX əsrin 30-cu illərində Azərbaycanda ali təhsil və elm sahəsində bir sıra yeniliklər baş verdi. Partiya və dövlət Azərbaycanda neft sənayesinin inkişaf surətindən razı deyildilər. 1921-1929-cu illər ərzində ölkədə mövcud olan yeganə ali texniki təhsil müəssisəsi (indiki Azərbaycan Texniki Universiteti) cəmi 71 mühəndis hazırlamışdı.(23) Ali təhsilli neft mütəxəssislərinin artırılması məqsədilə Politexnik İnstitutu Neft İnstitutuna (indiki Neft Akademiyası) çevrildi. Azərbaycan Dövlət Universiteti də əsaslı yenidənqurmaya məruz qaldı: Onun bazası əsasında bir neçə müstəqil institut yaradıldı. 1930-cu ildə Dövlət Universiteti öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı. 1932/1933-cü tədris ilində ölkədə 15 ali tədris müəssisəsi vardı və bu müəssisələrdə 10 min nəfər tələbə təhsil alırdı. 1930-cu ildə bütün ali və ali texniki məktəblərdə elmi kadrların hazırlanmasına, azərbaycanlı müəllimlərin artırılmasına imkan verən aspirantura təşkil olunmasının başlanğıcı qoyuldu. Ali məktəblərin və elmi mərkəzlərin fəaliyyəti Mərkəzin daimi «sayıq partiya nəzarəti» altında saxlanırdı. Bu obyektlərdə mövcud olan partiya təşkilatları sovet hakimiyyətinin varlığının bütün mərhələlərində «Kommunist partiyasının və sovet dövlətinin başlıca prinsip və qərarlarına əməl olunmasına» canfəşanlıqla nəzarət etmişlər. 1934-cü ilin 4 noyabrında Azərbaycan Dövlət Universitetinin fəaliyyəti bərpa olundu. 1940-1941-ci tədris ilində ölkədə təhsil alan 14602 ali məktəb tələbəsindən 10581 nəfəri dövlət təqaüdü alırdı. İctimai elmlərin tədrisində başlıca diqqət «marksizm-leninizm», «stalinizm» ideyalarının təbliğinə yönəlmişdi və bu ənənəyə SSRİ-nin dağılması məqamına qədər əməl olunmuşdur.

1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yaradıldı. Onun Azərbaycan MİK tərəfindən təsdiq olunmuş 53 həqiqi üzvü vardı. Azərbaycanda ictimai-siyasi elmlər o dövrdə hakim «proletariat diktaturası», «dünya sosialist inqilabı» konsepsiyasına uyğun surətdə inkişaf etdirilirdi. 1934-cü ilin 15 iyununda Azərbaycan SSR XKS-in 15 cildlik «Azərbaycan Ensiklopediyasının nəşri haqqında» qərarı qəbul olundu, lakin zəruri ixtisaslı kadrların, poliqrafiya bazasının və maddi vəsaitin çatışmaması üzündən bu məramı gerçəkləşdirmək mümkün olmadı. Böyük Vətən müharibəsindən əvvəlki illərdə Azərbaycanda 60-dək elmi idarə elm və texnikanın aktual prolblemləri ilə məşğul idi. 1939-cu ilin fevralında SSRİ EA-nın ümumi iclasında SSRİ EA-nın Azərbaycan filialının işi haqqında ilk dəfə hesabat verildi. Təqribən 25 illik (1920-1945) gərgin fəaliyyət sayəsində 1945-ci ilin yazında Azərbaycan SSR Elmlər Akademiyasını yaratmaq mümkün oldu. 1945-ci ilin 23 martında SSRİ EA-nın Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Akademik M.Mirqasımov bu başlıca elm mərkəzinin prezidenti oldu. Akademiyada 16 institut və bölmə, Şərq əlyazmaları və nadir kitablar fondu fəaliyyətə baş-

ladı.(24) Müharibədən sonrakı illərdə Azərbaycanda elm sahəsində böyük uğurlar qazanıldı. 1945-1970-ci illərdə ölkədə elmi idarələrin sayı 66-dan 142-yə çatmışdı. Əgər 1947-ci ildə Azərbaycanda 3282 nəfər alim var idisə, 1970-ci ildə onların sayı 17.082 nəfərə çatmışdı. Həmin illərdə elmlər doktorlarının sayı 113 nəfərdən 652 nəfərə, elmlər namizədlərinin sayı isə 669 nəfərdən 5346 nəfərə qədər artmışdı.(25) 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasında 977, 1955-ci ildə 1650 nəfərdən çox, 1970-ci ildə isə 3318 nəfər çalışırdı. Akademiyada təbiət və cəmiyyət elmlərinin müxtəlif sahələri üzrə əsaslı araşdırmalar aparılırdı. 1958-1963-cü illərdə 3 cildlik (4 kitabdan ibarət) «Azərbaycan tarixi» nəşr olundu. Təbiidir ki, bu əsərdə də sovet rejiminin tələb etdiyi bir çox prinsiplərə əməl olunmuşdu. Azərbaycan fəlsəfəsi və ictimai fikrinin araşdırılmasında H.Hüseynovun böyük rolu olmuşdu. Onun «XIX əsrdə Azərbaycanin ictimai və fəlsəfi fikir tarixindən» (rusca, 1949-cu il) adlı monoqrafiyası ölkənin elmi həyatında mühüm hadisə idi. Sənətşünas alimlər bu zaman ərzində «Azərbaycan Dram Teatrı» (1962), «Azərbaycan memarlığının tarixi» (1963), «Azərbaycan xalçası» (I cild, 1961) əsərlərini nəşr etdirdilər. Dilçilik, ədəbiyyatşünaslıq sahələrində də xeyli uğurlar qazanıldı.

Siyasi müstəqilliyin bərpası və bu müstəqilliyin ilk çağlarında Azərbaycan elmi yeni ciddi çətinliklərlə üzləşdi. Maddi vəsaitin çatışmaması, ənənəvi elmi əlaqələrin üzülməsi (bir çox hallarda qırılması) elmin inkişafı prosesini xeyli ləngitdi. Keçən əsrin 90-cı illərinin ortalarında yalnız Azərbaycan Elmlər Akademiyası sistemində 35 elmi tədqiqat institutu fəaliyyət göstərirdi. Respublika Elmlər Akademiyasının strukturunda bəzi dəyişikliklər baş verdi. 2000-ci ilin sonlarında Azərbaycan Elmlər Akademiyasında 8226 işçi, o cümlədən 3446 elmi işçi çalışırdı.(26) Akademiyanın 31 həqiqi və 48 müxbir üzvü vardı. Elmlər Akademiyasında elmin müxtəlif sahələri üzrə 466 elmlər doktoru və 1965 elmlər namizədi araşdırmalar aparırdı. 323 nəfər aspiranturada təhsil alır, 116 problem üzrə 382 mövzu tədqiq olunurdu. 1991-2001-ci illər ərzində Azərbaycan Elmlər Akademiyasının müəssisələrində 1644 mühüm nəticə alınmış, 504 iş istehsalata tətbiq olunmuş, 20 minədək məqalə çapdan çıxmış, 200-ə dək doktorluq, 650-yə qədər namizədlik dissertasiyası müdafiə olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 15 may 2001-ci il tarixli Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyasına «Azərbaycan Milli Elmlər Akademiyası» statusu verildi. 2002-ci ilin əvvəllərində MEA-da 60 akademik, 175 müxbir üzv, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı.(27) Ölkədə elmi, elmi-pedaqoji kadrların hazırlanması işini nizamlamaq məqsədilə 1992-ci ilin 23 aprelində Azərbaycan Ali Attestasiya Komissiyası təşkil edildi, 1994-cü ildən isə bu qurum «Azərbaycan Respublikası Prezidenti yanında Azərbaycan Ali Attestasiya Komissiyası» adlanmağa başlandı. 2000-ci ildə respublikanın 137 elmi-tədqiqat müəssisəsində 26,4 minədək işçi çalışırdı. Təbiət elmləri sahəsində araşdırmalar

aparan elmi mərkəzlərin beynəlxalq elmi təşkilatlarla əlaqələri genişləndi. Azərbaycan MEA- nın A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşlarının gərgin fəaliyyəti sayəsində 2003-cü ilədək «Azərbaycan tarixi»nin 7 cildi nəşr olundu. XXI əsrin əvvəllərində Azərbaycanda artıq 7 respublika dövlət arxivi fəaliyyət göstərirdi. Ölkədə bu arxivlərin 15 filialı, Naxçıvan MR və 56 rayon dövlət arxivi vardı. Elm sahəsində qazanılmış uğurlar respublikada iqtisadiyyatın, mədəniyyətin tərəqqisini və xalqın mənəvi həyatının zənginləşməsini sürətləndirirdi.

**Azərbaycan ədəbiyyatı və incəsənətinin təkamülü**

Sovet rejimi, kommunist partyiası ölkə əhalisinin bədii sərvətlərə yiyələnməsini özlərinin ideoloji fəaliyyətində məqsədyönlü, başlıca vəzifə kimi elan etmişdilər. Sovet rəhbərləri ədəbiyyata və incəsənətin digər sahələrinə ideoloji məqsədlərin gerçəkləşdirilməsinə mühüm vasitə kimi yanaşır, ədəbiyyat və incəsənətin inkişafı prosesini daim nəzarətdə saxlamağa çalışırdılar. M.Ə.Rəsulzadə yazırdı: «Sovet istilası ədəbiyyatın maneəsiz irəliləməsi üçün əngəllər törətdi. Milli ruha yabançı olan» Kommunist hökuməti formaca milli olan ədəbiyyata əvvəlcə səbrlə yanaşdısa da, məlum olduğu kimi, ona beynəlmiləl proletar məzmunu verməyə çalışdı. Lakin Sovet işğal hökuməti milli Azərbaycan ruhunu çürütmək və burada «proletkult» deyilən bir mədəniyyət yaratmaq sahəsində sərf etdiyi əməklərində müvəffəq ola bilmir, bu iş üçün o, özünə lazım olan vasitələrə malik deyildi. Ədəbiyyat əski ustadların əlində idi. Görünüşdə mövcud olan vəziyyətə uyğun olaraq, yeni hökumətin bəzən sərtliyini, bəzən də diplomatca yumşaqlığını dadan bu yazıçılar öz çətin və ağır işləri ilə məşğul idilər».(28) Qədim, zəngin, humanist irsə əsaslanan Azərbaycan ədəbiyyatı və incəsənətinin mütərəqqi cəhətləri belə ağır şəraitdə də özünə yol açır, xalq həmin irsə lazımi səviyyədə yiyələnməyə can atırdı. C.Məmmədquluzadə, S.S.Axundov, Ə.Haqverdiyev, A.Şaiq, Y.V.Çəmənzəminli, N.B.Vəzirov, C.Cabbarlı, M.S.Ordubadi, T.Şahbazi, Ə.Nəzmi, M.Hadi, B.A.Talıblı keçən əsrin 20-ci illərində maarifçilik, humanizm, tərəqqi ideyalarını təbliğ etmiş görkəmli ədiblər olmuşlar. Bu illərdə S.S.Axundovun fəaliyyəti xüsusilə nəzərə çarpırdı. Təbiidir ki, bu hal sovet rejiminin onun yaradıcılığını bəyənməsinin nəticəsi idi. Həmin dövrdə Naxçıvan Nərimanov yeni tarixi mərhələdə Azərbaycan ədəbiyyatının milli dəyərlərə bağlı surətdə inkişafına xüsusilə diqqət yetirirdi. Partiya və dövlət orqanları hər vasitə ilə ölkədə ədəbi qüvvələrin təşkilatlanmasına çalışırdılar. Çünki təşkilatlanmış ictimai qüvvəni nəzarətdə saxlamaq, bu təşkilatın fəaliyyətini bir çox məqamlarda daxildən istiqamətləndirmək daha asan olardı. 1927-ci ilin iyununda Azərbaycan yazıçılarının I ümumi iclasında Azərbaycan Proletar Yazıçıları Assosiasiyasının müvəqqəti idarə heyəti seçildi. Bu idarə heyətinə 13 nəfər seçildi. «Maarif və mədəniyyət» jurnalı Azərbaycan KP MK-nın üzvü R.Axundovun başçılığı ilə onun orqanı təsdiq edildi.(29) Beləliklə, yaradıcılıq təşkilatlarının fəaliyyətini Kommunist partiyası və so-

vet dövlət orqanları istiqamətləndirməyə başladı. Bu şəraitdə Azərbaycan ədəbiyyatı yeni hakim ideologiyaya, rəsmi siyasətə xidmət etməli idi. Bu inkişaf məcrasından çıxmış, rəsmi ideologiyaya uyğun olmayan ədiblər isə təqiblərə, məhrumiyyətlərə, cəzalara məruz qalmağa başladılar.

Partiya və dövlət orqanları Azərbaycanda incəsənətin inkişafını da «təşkil etməyə» çalışırdılar. 1921-ci ilin yanvarında Xalq Maarif Komissarlığı nəzdində teatr, musiqi, təsviri sənət və fotokino yarımşöbələri olan xüsusi incəsənət şöbəsi və incəsənətlə bağlı olan bütün fəaliyyətə rəsmi rəhbərlik etmək məqsədilə İncəsənət şurası təsis olundu. N.Nərimanov ölkədə keçirilən ilk mədəni tədbirlərin təşəbbüskarı və rəhbəri idi. Azərbaycanda bədii, musiqi, teatr idarələrinin təşəkkülü və inkişafında Ü.Hacıbəyov, M.Maqomayev, Ə.Əzimzadə, Ə.Haqverdiyev, N.B.Vəzirov fəal iştirak edirdilər. Bakıda mövcud olan bir sıra teatr binaları bərpa olundu, sovet dövrünün ilk teatr tamaşaları nümayiş etdirildi. 1923-cü ildə Bakıda Ş.X.Məmmədovanın və A.M.Şərifzadənin fəal iştirakı ilə yalnız Azərbaycan üçün deyil, Orta (Mərkəzi) Asiya respublikaları üçün də teatr kadrları hazırlayan, islam Şərqində ilk teatr texnikumu açıldı.

Keçən əsrin 20-ci illərindən milli musiqinin yeni inkişaf zəmini hazırlandı. Ölkədə musiqi fəaliyyətinin təşkilinə Xalq Maarif Komissarlığı başçılıq edirdi. Bu dövrdə yeni Azərbaycan musiqisinin əsasını qoymuş Ü.Hacıbəyovun musiqi təhsili, Azərbaycan musiqisinin tədqiqi və təbliği sahəsindəki xidmətləri misilsiz olmuşdur. 1921-ci ilin 26 avqustunda Azərbaycan SSR XKS-in dekreti ilə İslam Şərqində ilk Musiqi Akademiyası təsis olundu. Bu dövrün musiqi həyatında M.Maqomayevin də böyük xidmətləri olmuşdur. Ü.Hacıbəyov o zaman Azərbaycan musiqisini Avropa musiqisindən təcrid etməyə çalışan, onların üzvi birliyini qəbul etmək istəməyən «musiqi xadimlərinə» müraciət edərək yazmışdı: «Bizə, Azərbaycan türklərinə ümummusiqi incəsənətini öyrənmək ..., Avropa musiqisini öyrənmək üçün vaxt, enerji və vəsait sərf etmək lazımdırmı? Bəli, lazımdır və zəruridir».(30) Azərbaycanda musiqi sənətinin sonrakı inkişafı Avropa musiqisi ilə milli musiqini üzvi surətdə əlaqələndirərək ölməz əsərlər yaratmış Ü.Hacıbəyovun obyektiv olan müddəasını təsdiqlədi.

1923-cü ildə Bakıda birinci kino-fabrik filmlərin çəkilişinə başlandı. Həmin ildə Azərbaycan sovet bədii filmi olan «Qız qalası» ekrana çıxdı. 1926-cı ildə filmlərin kirayəsi və nümayişi ilə məşğul olan Azərbaycan Dövlət Kino İdarəsi yaradıldı.

Keçən əsrin 20-ci illərində təsviri sənət sahəsində də bir sıra uğurlar qazanıldı. 1920-ci ildə Xalq Maarif Komissarlığı nəzdindəki incəsənət şöbəsində bədii bölmə yaradıldı və Ə.Əzimzadə bu bölmənin rəhbəri təyin edildi. Bu dövrdə Azərbaycanda yeni qrafika sənətinin yaranması və inkişafı Ə.Əzimzadənin adı ilə bağlıdır. Bu zaman partiya siyasi plakat janrının hər vasitə ilə inkişaf etdirilməsinə can atırdı. Siyasi plakat janrının ən maraqlı nümunələri-

ni bu əsrin 20-ci illərində məhz Ə.Əzimzadə yaratmışdı. 1927-ci ildə ona «xalq rəssamı» fəxri adı verildi. Azərbaycan portret rəssamlığında B.Kəngərlinin xidmətləri həmin tarixi dövrdə diqqəti cəlb edirdi. Təsviri sənət sahəsində milli kadrların yetişdirilməsi məqsədilə 1921-ci ildə Ali Bədii Məktəb təsis olunmuşdu. 1924-1925-ci tədris ilində burada 103 şagird təhsil alırdı ki, onlardan təqribən 35 faizi azərbaycanlı, 37 faizə qədəri rus idi. Bu təsviri sənət ocağında təhsil alan şagirdlərin arasında azərbaycanlı şagirdlərin sayı tədricən artırdı.

Sovet hakimiyyətinin ilk illərində memarlıq da rəsmi maddi və estetik tələbatları ödəməyə istiqamətləndirilirdi. Bu dövrdə Abşeron yarımadasında ilk fəhlə qəsəbələrinin salınması Azərbaycan memarlığının öz dövrü üçün böyük nailiyyəti idi. Bu işlər rus sovet memarı A.P.İvanişkinin ümumi rəhbərliyi altında aparılırdı. Bakı şəhərinin inkişafını müəyyən edən baş planın hazırlanması işi 1924-cü ildə ona tapşırılmışdı. Həmin planın hazırlanması işi 1927-ci ildə başa çatdırıldı. 1926-cı ildə Bakı şəhərini ətraf fəhlə qəsəbələri ilə birləşdirən elektrik dəmiryol xətti istifadəyə verildi. Bu, SSRİ-də ilk elektrik dəmiryol xətti idi. Bakıda monumental və milli memarlıq ənənələrini özündə üzvi şəkildə birləşdirən «Sabunçu» dəmiryol vağzalının binası tikildi. Kommunist partiyasının və sovet dövlət orqanlarının sərt ideoloji nəzarətinə, təzyiqinə baxmayaraq, sovet hakimiyyətinin ilk illərində Azərbaycanda ədəbiyyat və incəsənətin inkişafında xeyli uğurlar qazanılmışdı.

1926-cı ilin 13-16 yanvarında Bakıda Azərbaycan yazıçılarının I qurultayı keçirildi. Qurultayda ölkə yazıçıları qarşısında yeni «inqilabi vəzifələr» bəyan edildi. S.Rüstəm, H.Nəzərli, C.Cabbarlı, S.Vurğun, M.Rahim bu dövrdə qarşıya sürülmüş «yeni vəzifələrə» uyğun gələn əsərlərlə ədəbi prosesdə ön mövqelərə keçdilər. M.Müşfiq, H.Cavid kimi bir sıra ədiblər isə «sifarişlə» bədii əsərlər yaratmaq istəyində olmadıqları üçün tənqid və təqiblərə məruz qaldılar. 1922-ci ildə satirik «Molla Nəsrəddin» jurnalının nəşri bərpa edildi və C.Məmmədquluzadənin redaktorluğu ilə fəaliyyyətini davam etdirdi. ÜİK (b)P MK-nın 23 aprel 1932-ci il tarixli qərarına əsasən, Azərbaycanda da bütün yaradıcı təşkilat və birliklər ləğv olundu. Onların əvəzinə «sovet» yazıçı, bəstəkar, rəssam və memarlar ittifaqlarının təşkilat komitələri yaradıldı. Bu «yenidənqurma» ədəbiyyat və incəsənətə partiya müdaxiləsini gücləndirmək, onlara ideoloji təsir göstərmək məqsədilə edilmişdi. 1934-cü ilin iyununda Bakıda Azərbaycan Sovet Yazıçılarının I qurutayı keçirildi. Poeziyanın, nəsrin, dramaturgiyanın inkişafına «partiyanın və dövlətin xüsusi diqqət və qayğısı» bu qurultaydan sonra da nəzərə çarpırdı. Həmin dövrün Azərbaycan ədəbi mühitinə alışa bilməmiş, müstəqil yaradıcılıq prinsiplərinə sadiq qalmış ədiblər mühacirətdə fəaliyyət göstərirdilər. M.Ə.Rəsulzadə, Əmin Abid (Gültəkin), Almas Yıldırım, Yaycılı Kərim bu dövrün görkəmli mühacir-ədibləri olmuşlar. 1939-cu ildə Moskvada «Azərbaycan poeziyası antologiyası» əsəri (rusca) çapdan çıxdı. Ə.Əzimzadə və

R.Mustafayev bu кitaba gözəl tərtibat vermişdilər. 1940-cı ilin mayında Mosкvada Azərbaycan ədəbiyyatı deкadası (ongünlüyü) кeçirildi.

Xalqın ictimai, mənəvi həyatında teatr sənətinin rolu getdiкcə artmaqda idi. 1927-ci ildə Azərbaycanda 5 teatr var idisə, 1933-cü ildə onların sayı 10-a çatmışdı. Bu illər ərzində Azərbaycan teatrının görкəmli aкtyorlar nəsli formalaşır, onlara qayğı və diqqət artırdı. A.M.Şərifzadə, Ü.Rəcəb, M.Davudova, İsmayıl Hidayətzadə, M.A.Əliyev, Sidqi Ruhulla, Ə.Qəmərlinsкi, M.M.Kazımovsкi, Ə.Məmmədova, M.Mərdanov, M.Sənani, Rza Təhmasib həmin nəslin görкəmli nümayəndələri olmuşlar. Keçən əsrin 30-cu illərinin II yarısında Azərbaycanda tüğyan edən repressiyalar dalğası bir sıra görкəmli teatr xadimini də məhv etdi. A.M.Şərifzadə, Ü.Rəcəb və Kazım Ziya Kazımzadə bu repressiyaların çoxsaylı qurbanları sırasında idilər.

Keçən əsrin 20-30-cu illərində Azərbaycan musiqisinin inкişafında 2 ifrat mövqe diqqəti cəlb edirdi. Bir qrup musiqi xadimi Avropa musiqisini qəbul etməк istəmir, başqa qrupa mənsub olanlar isə Azərbaycan milli musiqisini, xüsusilə muğam sənətini «primitiv» (bəsit) hesab edirdilər. Bu dövrdə milli musiqi alətlərini Avropa musiqi alətləri ilə dəyişməyi təкlif edənlər də vardı. Ü.Hacıbəyov və M.Maqomayev musiqi sahəsində nihilist, «islahatçı» mövqelərində duran «xadimlərin» кəsкin müqavimətinin aradan qaldırılmasında mühüm rol oynadılar. Bu tarixi dövrdə Azərbaycanın tam ali musiqi təhsili almış bəstəкarı Asəf Zeynallı (1909-1932) ilк Azərbaycan romanslarını yaratmışdır. Xanəndələr Cabbar Qaryağdı, Seyid Şuşinsкi, tarzənlər Qurban Pirimov və Bəhram Mansurov 20-30-cu illərdə tanınmış Azərbaycan ifaçıları olmuşlar. Azərbaycanda müsiqi sənətinin inкişafında 1932-ci ildə müasir milli professional voкal sənətinin banisi M.Məmmədovun (Bülbülün) təşəbbüsü ilə yaradılmış elmi- tədqiqat musiqi кabineti həlledici rol oynadı. 30-cu illərin sonunda Azərbaycan Dövlət Konservatoriyasında opera sinfi açıldı. 1934-cü ildə Azərbaycan Bəstəкarlar İttifaqı yaradıldı. Ü.Hacıbəyovun 1934-cü ildə yazdığı «Koroğlu» operası Azərbaycan opera musiqisinin zirvə məqamı oldu. 1936-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının əsası qoyuldu. Həmin dövrdə ilк milli musiqili кomediyaları meydana gəldi. 1938-ci ildə Mosкvada Azərbaycan incəsənəti deкadası кeçirildi. 1940-cı ildə Ü.Hacıbəyovun «Koroğlu» operasına SSRİ Dövlət müкafatı verildi. C.Hacıyev, Q.Qarayev кimi bəstəкarların, Azərbaycanın ilк balerinası Qəmər Almaszadənin fəaliyyətinin başlanğıc məqamı bu tarixi dövrə təsadüf etmişdir. Həmin dövrdə yalnız Baкıda və onun ətraf neft rayonlarında ibtidai musiqi məкtəbləri vardı. Gənc, peşəкar musiqiçilər – Niyazi, F.Əmirov, S.Hacıbəyov, S.Ələsgərov fəal surətdə Azərbaycan mədəni həyatına qoşulmuşdular. Azərbaycan Dövlət Konservatoriyası ölкədə musiqiçi кadrlar hazırlanmasının başlıca mərкəzi idi. 1931-1932-ci tədris ilində burada təhsil alan 530 tələbədən 304 nəfəri azərbaycanlı idi.

Bu dövrdə Azərbaycan кino sənəti təşəккül taparaq müasir inкişaf yoluna çıxmağa başladı. Milli кinematoqrafiyada hələ də yerli rejissor və operatorlar az idi, onların lazımi yaradığcılıq təcrübəsi zəif idi. «Vulкan üzərində ev» (1928), «Sevil» (1929), «İsmət» (1934), «Altıncı duyğu» (1935), «Almaz», «Baкılılar» кimi filmlər bu dövrün кinematoqrafiyasının böyüк uğurlarından olmuşdur. 1938-ci ilin noyabrında Azərbaycan SSR XKS yanında Kinematoqrafiya Komitəsi yaradıldı.(31) Təbiidir кi, tədricən кütlələrə böyüк ideoloji təsir vasitəsinə çevrilən кinematoqrafiya Kommunist Partiyasının və sovet dövlət orqanlarının sərt nəzarəti altında idi.

Keçən əsrin 30-cu illərində təsviri sənətin inкişafında canlanma müşahidə edilirdi. 10 il ərzində Baкıda fəaliyyət göstərən bədii texniкum 70 rəssam (o cümlədən 17 azərbaycanlı) hazırlamışdı. 1928-ci ildə Azərbaycanın gənc rəssamlar təşкilatı yaranmışdı. İ.Axundov, R.Mustafayev, A.Qazıyev, A.Rzaquliyev, Ş.Mansurov ölкədə fəaliyyət göstərən təsviri sənət ustalarının təşкilatlanmasında böyüк rol oynamışlar. 1932-ci ilin deкabrında xalq rəssamı Ə.Əzimzadə başda olmaqla Azərbaycan Sovet Rəssamlar İttifaqı yarandı. 1933-cü ilin əvvəllərində onun sıralarında 90 nəfərədəк rəssam vardı. Bu İttifaqın başlıca vəzifəsi «Ölкənin yaradıcı кadrlarını yeni cəmiyyət quruculuğunda fəal iştiraк etməyə cəlb etməк» idi. 1936-cı ildə Azərbaycan Dövlət Muzeyi nəzdində müstəqil İncəsənət Muzeyi yaradıldı. Orada mindən çox eкsponat vardı. 1940-cı ilin 7 martında Baкıda Azərbaycan rəssamlarının birinci qurultayı açıldı. Qurultayda İsmayıl Axundov Rəssamlar İttifaqı Rəyasət Heyətinin sədri, Mürsəl Nəcəfov məsul кatib seçildilər. Beləliкlə, müharibə ərəfəsində Azərbaycan təsviri və deкorativ-tətbiqi sənətinin bütün növ və janrlarında milli bədii məкtəb formalaşır, yaradıcı ziyalı кadrlar yetişir, xalqın mənəvi-estetiк həyatında yeniliкlər baş verirdi.

Keçən əsrin 30-cu illərində Azərbaycan memarlığının inкişafında diqqəti cəlb edən başlıca cəhət yeni yaşayış məntəqələrinin yaradılması idi. Bu zaman Yeni Suraxanı, Artyom (Pirallahı), Şubanı qəsəbələri salındı. Montin qəsəbəsində tiкinti işi genişləndirildi, Məmmədyarov qəsəbəsinin əsası qoyuldu. Baкı şəhərinin mərкəzində məşhur «Beş mərtəbə», iri yaşayış evləri ucaldıldı. Azərbaycan Dövlət nəşriyyatının,Dövlət Banкının, кöhnə «İnturist» mehmanxanasının binaları Baкının yeni memarlıq görкəminin dəyərli nümunələri idi. Azərbaycan Sənaye İnstitutunda milli memarların ilк nəsli yetişdirildi. M.Hüseynov və S.Dadaşov onların içərisində idi. Bu illərdə Azərbaycan memarlığı ənənələrinə uyğun olan Höкumət evi ucaldıldı. Şəhərdə inşa olunmuş bir sıra yayayış binalarının memarları S.Dadaşov və M.Hüseynov olmuşlar. 1935-ci ildə Azərbaycan Sovet Memarları İttifaqı yaradıldı. Onun ilк qurultayı 1936-cı ilin martında кeçirildi. Şəhərin yaşıllaşdırılması sahəsində xeyli uğur qazanıldı. Laкin Azərbaycan şəhərlərinin baş planlarının həyata кeçirilməsi işi ləng gedirdi. Beləliкlə, 20-ci illərin sonunda – 40-cı illərin əvvəllərində Azərbaycan ədəbiyyatı və

incəsənəti mürəkkəb, ziddiyyətli şəraitdə təşəkkül tapmış və inkişaf etmişdi.

1941-1945-ci illər ərzində Azərbaycan ədiblərinin, rəssamlarının, memarlarının başlıca diqqəti hərbi-vətənpərvərlik işinin genişləndirilməsinə yönəldilmişdi. Azərbaycan bəstəkarları müharibə illərində 400 yeni əsər (marş, simfoniya, mahnı, opera əsəri və s.) yaratmışdılar. Azərbaycan ədəbiyyat və incəsənət xadimləri döyüşən Sovet orldusu hissələrində olur, əsgərlərin estetik, mənəvi tələbatlarını ödəyir, onları qələbəyə ruhlandırırdılar. Müharibədən sonrakı dövrdə də Azərbaycan ədəbiyyatı ictimai-siyasi həyatla üzvi əlaqədə inkişaf edirdi. O zaman SSRİ məkanında hökm sürən «konfliktsizlik» nəzəriyyəsi Azərbaycan poeziyasının, nəsrinin, dramaturgiyasının da inkişaf məcrasına müəyyən təsir göstərirdi. M.İbrahimov, S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, O.Sarıvəlli, M.Hüseyn, Ə.Əbülhəsən, Ə.Vəliyev, M.Cəlal, S.Rəhman bu dövrün ədəbi prosesində ön mövqelərdə olmuş ədiblər olmuşlar. Əsrin 60-cı illərində «Yeni nəsr» ədəbi məktəbi təşəkkül tapdı. Azərbaycan ədəbiyyatındakı durğunluq hallarına qarşı olan bu məktəbin təşəkkülü və inkişafında E.Əfəndiyev (Elçin), A.Rzayev (Anar), S.Rəhman, İ.Hüseynov, Ə.Əylisli, S.Əhmədov, Rüstəm və Maqsud İbrahimbəyov qardaşları mühüm rol oynadılar.

Müharibədən sonrakı Azərbaycan musiqisinin inkişafı prosesində Q.Qarayevin, F.Əmirovun, C.Hacıyevin, S.Ələsgərovun, S.Hacıbəyovun, Ə.Bədəlbəylinin, T.Quliyevin, C.Cahangirovun mühüm rolu olmuşdur. Bülbül (M.Məmmədov), R.Behbudov, Ə.Dilbazi, Q.Almaszadə, Q.Pirimov, Ə.Bakıxanov, B.Mansurov, S.Şuşinski, X.Şuşuinski, S.Qədimova, Ş.Ələkbərova, Ə.Əliyev bu dövrün mahir, tanınmış ifaçıları idilər. Niyazinin, Ə.Bədəlbəylinin dirijorluq fəaliyyəti Azərbaycan mədəni, musiqi həyatının parlaq səhifələrindən olmuşdur. Müharibədən sonrakı illərdə Azərbaycan teatrında müasir mövzuların və qəhrəmanların səhnəyə «gəlməsi» prosesi gücləndi. Bu dövrdə Azərbaycan kinosunun təkamülündə də nəzərəçarpacaq irəliləmələr baş verdi. «Arşın mal alan» (1945), «Bakının işıqları» (1949-1950), «Sevimli mahnılar», «Qara daşlar», «O olmasın, bu olsun», «Qızmar günəş altında», «Bir məhəlləli iki oğlan», «Uzaq sahillərdə», «Ögey ana», «Mahnı belə yaranır» filmləri (1954-1958) bu zamanın sevilən bədii filmləri idi. Təsviri sənət sahəsində M.Abdullayev, B.Mirzəzadə, S.Salamzadə, T.Tağıyev, S.Bəhlulzadə, V.Səmədova, T.Nərimanbəyov böyük uğurlar əldə etdilər. F.Əbdürrəhmanov, Ç.Qaryağdı, Ö.Eldarov, M.Mirqasımov, T.Məmmədov bu dövrdə gözəl heykəltəraşlıq nümunələri yaratdılar, Sumqayıtda iri yaşayış məntəqəsinin, sənaye mərkəzinin yaradılması müharibədən sonrakı Azərbaycan memarlığının diqqəti cəlb edən hadisələrindən idi. Bakı şəhərində Hökumət evinin, Respublika stadionunun inşası bu dövrdə başa çatdırıldı. Azərbaycan Dövlət Dram Teatrının, Daxili İşlər Nazirliyinin, Mərkəzi Univermağın, Lenin Muzeyinin Bakı filialının, M.F.Axundov

adına Dövlət Kütləvi Kitabxanasının binaları keçən əsrin 50-60-cı illərində inşa olundu. Lakin qeyd etmək lazımdır ki, memarlıq sahəsində milli ənənələrdən uzaqlaşma, yeknəsəqlik halları da bu dövrdə özünü göstərirdi. 1946-1970-ci illərdə Azərbaycan mədəniyyəti quruculuğunda mürəkkəb və ziddiyyətli məqamlar vardı, lakin bu illəri milli mədəniyyətin təkamülü prosesində mühüm tərəqqi dövrü hesab etmək olar.

Keçən əsrin 70-80-ci illərində də Azərbaycan ədəbiyyatı və incəsənətində mühüm irəliləyişlər baş verdi. M.İbrahimov, İ.Səfərli, N.Rəfibəyli, Anar, Elçin, Əli Kərim, N.Xəzri (Babayev), R.Rza, B.Vahabzadə, X.Rza, Məmməd Araz, İ.Əfəndiyev, Ə.Əylisli və bir çox Azərbaycan ədibləri bu dövrün ədəbi prosesində fəal iştirak etmişlər. Musiqi yaradıcılığı sahəsində F.Əmirov, A.Məlikov, R.Behbudov, A.Əlizadə, F.Əhmədova, M.Maqomayev (nəvə), Niyazi, Fidan və Xuraman Qasımova bacıları, H.Əliyev, V.Mustafazadə xüsusilə fərqlənmişlər. Teatrın inkişafında mühüm xidmətləri olmuş bir çox aktyor və rejissorlar yeni nəslin yetişdirilməsində (H.Turabov, A.Pənahova, S.Rzayev, F.Poladov, H.Bağırov, Yaşar Nuri, S.Aslan, H.Xanızadə və b.) həlledici rol oynadılar. 1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi Azərbaycanda və Moskvada təntənəli şəkildə qeyd olundu. Əsrin 70-80-ci illəri ərzində memarlıq sahəsində də nailiyyətlər qazanıldı. Bu dövrdə M.Hüseynovun, H.Ələsgərovun, Ə.Hüseynovun layihələri əsasında ölkənin müxtəlif yaşayış məntəqələrində milli memarlıq ünsürlərini əks etdirən onlarla müxtəlif təyinatlı obyekt inşa olunmuşdu. Azərbaycan heykəltəraşları və təsviri sənət ustaları tarixi və müasir dövrü əks etdirən əsərlər yaratdılar. Bu dövrdə Azərbaycanın mənəvi sərvətləri, kadr potensialı zənginləşdi. Xalqın mədəni irsinin, tarixinin, dilinin, ədəbiyyat və incəsənətinin təbliği işi genişləndi.

Keçən əsrin sonlarında Azəraycanın yenidən siyasi müstəqillik qazanmasında ədəbiyyat və incəsənət xadimləri mühüm rol oynamışlar. «Ədəbiyyatın, filologiyanın inkişafına diqqəti artırmaq üçün Prezident Heydər Əliyev 1996-cı ildə Füzuli adına Beynəlxalq mükafat təsis etdi. 1997-ci ilin noyabr ayında «Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında» Fərman verdi.(32) Bir çox ədəbi qəzetlərin və jurnalların nəşri dövlət hesabına həyata keçirilməyə başlandı. 2002-ci ilin 11 iyununda 150 nəfər ədəbiyyat, incəsənət, mədəniyyət xadimi üçün Prezident təqaüdü təyin edildi. Qısa zaman ərzində respublikada 7 teatr yarandı. 2000-ci ildə ölkədə 26 dövlət teatrı fəaliyyət göstərirdi. 1995-2003-cü illərdə Azərbaycan Dövlət Filarmoniyası əsaslı şəkildə təmir olundu. 1997-ci ilin noyabrında Bakıda vokalçıların Bülbül adına Birinci Beynəlxalq Müsabiqəsi keçirildi.(33) Azərbaycan bəstəkarlarının, ədəbiyyat və incəsənət xadimlərinin beynəlxalq əlaqələri yeni vüsət aldı. 2002-ci ilin yayında YUNESKO katibliyinin qeyri-maddi irsin öyrənilməsi şöbəsinin himayəsi ilə xanəndə Alim Qasımov «Alim» Ümumdünya Muğam Mərkəzi yaratmağa başladı. Azərbaycan kinosunda yaranmış prolblemlərin həll olunması üçün «Azərbaycan-

film» кinostudiyası 1994-cü ildən dövlət büdcəsindən maliyyələşdirilməyə başlandı. Azərbaycan кino sənətinin yeni, istedadlı nəsli fəaliyyətə başladı. V.Mustiafayevin, A.Salayevin, H.Mehdiyevin çəкdiкləri bədii filmlər meydana çıxdı. Bu rejissorlar beynəlxalq miqyasda da tanınmağa başladılar. V.Mustafayev Avropa Televiziya və Kino Aкademiyasının üzvü seçildi. Ayaz Salayev də bir sıra beynəlxalq кino müsabiqələrində yüкsəк müкafatlara layiq görüldü. Milli memarlığın, rəssamlığın inкişafında da bir sıra uğurlar əldə olundu. Baкıda H.Cavidə (1994-cü ildə), Şah İsmayıl Xətaiyə (1993-cü ildə), aкademiк Y.Məmmədəliyevə (1998-ci ildə) heyкəllər ucaldıldı. Təbiidir кi, son 15 ildə ədəbiyyat və incəsənət sahəsində mövcud olan potensial tam şəкildə gerçəкləşmədi. Laкin «qapalı dünya»dan (SSRİ sistemindən) qurtulmuş Azərbaycanın beynəlxalq mədəni aləmə inteqrasiyası həmin potensialın gercəкləşməsi üçün əlverişli imкanlar yaradacaq, çoxəsrliк və zəngin Azərbaycan mədəniyyətinin gələcəк inкişafını təmin edəcəкdir. Siyasi müstəqilliк, zəngin iqtisadi potensial bu perspeкtiv inкişafın başlıca təməllərini təşкil edir. Görкəmli dövlət xadimi Qazi Mustafa Kamal Atatürкün hələ кeçən əsrin 30-cu illərində ifadə etdiyi fiкirlər hal-hazırda da öz aкtuallığını saxlamaqdadır: «Keçmişdə saysız-hesabsız sivilizasiya inciləri yaratmış irgin və millətin uşaqları olduğumuzu sübut etməк üçün lazım olan işlərin hamısını etdiyimizi iddia edə bilməriк; bu günə və sabaha saxlanılmış hələ çox işlərimiz vardır».(34)

## ƏDƏBİYYAT


1. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Ərəb qrafiкasından transliterasiya edəni, qeydlərin və lüğətin müəllifi Asif Rüstəmov. Baкı, Elm, 1990, s.95.
2. Леопольдо Сеа. Философия американской истории. Перевод с испанского. М., 1984, с.11.
3. Azərbaycan Respubliкası Dövlət Arxivi (bundan sonra-ARDA). Fond 410, siyahı I, iş 3, vərəq 20; f.57, s.I, i.IX, v.15.
4. Azərbaycan tarixi. Yeddi cilddə, VI cild (aprel 1920-iyun 1941). Baкı, Elm, 2000, s. 202.
5. Декреты Азревкома (1920-1921 гг.). Сборник документов, с.184.
6. Nəzər Paşayev. Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti. Baкı, Azərnəşr, 1986, s.63.
7. Нариман Нариманов. Избранные произведения. Том II (1918-1921 гг.). Баку, 1989, с.340-341.
8. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (aprel 1920- iyun 1941), s.203.
9. Обзор деятельности правительства за 1927 и 1928 г.г. Отчёт Азербайджанскому съезду Советов. Баку, 1929, с.321.
10. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild, s.208.
11. Культурное строительство Азербайджанской ССР. Статистический сборник. Баку, 1961, С.130.
12. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild, s.312.
13. Yenə orada, s.315.
14. ARDA, f. 379, s.16, i.70, v. 11, s.225.
15. Cəlal Qasımov. Yaddaşın bərpası. Baкı, 1999, s. 157.

16. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (iyun 1941-2002-ci il). Вакı, Elm, 2003, s.162.
17. Народное образование, наука и культура в Азербайджанской ССР. Статистический сборник. Баку, 1975, с.86.
18. Народное хозяйство Азербайджанской ССР к 70 летию Великого Октября. Юбилейный статистический ежегодник. Баку, 1987, с. 151.
19. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild, s.442.
20. Yenə orada, s.448.
21. ARDA. f.57, s.1, iş 176, v.10.
22. Известия Общества обследования и изучения Азербайджана. Баку, 1925, № 1, с.111.
23. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild, s.330.
24. История Азербайджана. Том III, часть II, Баку, 1963, с.146-147; Azərbaycan tarixi. Yeddi cilddə, VII cild, s. 34.
25. Достижения Советского Азербайджана за 40 лет в цифрах. Статистический сборник. Баку, 1960, с.203
26. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild, s. 456.
27. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild, s. 457.
28. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan ədəbiyyatı. Вакı, Gənclik, 1991, s.61.
29. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild, s.239.
30. Гаджибеков У. О музыкальном искусстве Азербайджана. Баку, 1966, с.25-26.
31. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild, s. 359.
32. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild.s. 464.
33. «Xalq» qəzeti, 19 noyabr. 1998-ci il.
34. Utкan Qocatürк. Atatürк. Вакı, Elm, 1991, s. 153.

## КУЛЬТУРА АЗЕРБАЙДЖАНА В 1920-1991 ГОДАХ

Х.М.АБАСОВА

### РЕЗЮМЕ

Культура Азербайджана является составной частью общемировой культуры. Это итог многовекового исторического пути азербайджанского народа. Большая часть его культурного потенциала была создана в период, когда Азербайджан входил в советскую общественно-политическую систему. После восстановления независимости в 1991 г. расширились условия для осуществления своих возможностей, но при этом необъективная критика культурно-исторических достижений советского периода неприемлема для исторических наук.

В данной статье, на основе большого количества научной литературы исследованы и обощены достижения культуры Азербайджана в советский период.

Они обобщены по трем направлениям:

1. Развитие просвещения (открытие школ, культурно-просветительских учреждений, отношение к исламской религии, проблема алфавита).
2. Развитие науки (открытие высших и средних специальных учебных заведений, научно-исследовательских институтов, Академии Наук и т.д.)
3. Развитие азербайджанской литературы и искусства (музыка, кино, архитектура, литература, театр, изобразительное искусство, скульптура; идеологический фактор, оказывающий огромное влияние на развитие культуры советского периода).